**Rəfiqə Həsənağa qızı Əlizadə** [142]

# MÜASİR TƏHSİL STRATEGİYASINA ƏSASƏN MÜƏLLİM

**Giriş.** YUNESKO XXI əsri təhsil əsri elan etməklə bəşəriyyətin taleyində bu sahənin nə qədər əhəmiyyətli olduğunu vurğulamışdır. Xüsusilə müasir qloballaşma dövründə milli keyfiyyətləri qoruya bilən, adət-ənənələri yaşadan və dünya mədəniyyətinin müsbət cəhətlərini mənimsəyən müəllim kadrlarına ehtiyac vardır. Müəllim, məktəb, təhsil və ailə arasında bağlılıq yaradan, aktiv təsir edən bir şəxsdir; o, şüurları, əqidələri, baxışları və milli xüsusiyyətləri yad təsirlərdən qoruyur və təlqin edir.

**Əsas hissə.** Müasir məktəb, əsl maarif ocağı kimi, ailəni və cəmiyyəti öz ətrafında birləşdirməlidir. Müasir təlim metodları və üsulları ilə yanaşı, pedaqoji kadrlar xalq pedaqogikasından da faydalanmalıdır. Milli özünəməxsusluq qorunmalı və qiymətləndirilməlidir. XXI əsrin müəllim kadrlarından tələb olunur ki, onlar müasirliyi özündə daşıyan, vətəninə və ailəsinə lazım olan, müstəqil düşünə bilən, sağlam rəqabətə hazır olan vətəndaşlar yetişdirsinlər. Buna görə də müəllim pedaqoji ustalığa malik olmalıdır. Həzrəti Məhəmməd peyğəmbər demişdir: "Müəllim nur yayan insandır". Müasir müəllim humanist, əxlaqi cəhətdən kamil, intellektual və yüksək mənəviyyatlı bir şəxsiyyət olmalıdır [6].

Pedaqoji prosesdə müəllim və şagird arasında əməkdaşlıq vacib bir amil kimi nəzərə alınmalıdır. Azərbaycan Respublikasında pedaqoji təhsil və müəllim hazırlığına dair konsepsiya və strategiyanın təsdiq edilməsi ilə bağlı Nazirlər Kabinetinin 102 saylı qərarında (2007-ci il 25 iyunda qəbul edilmişdir) aşağıdakı məqsədlər göstərilir:

1. Təhsil sistemini yüksək peşəkarlığa malik pedaqoji kadrlarla təmin etmək.
2. Təhsilin keyfiyyətini artırmaq.

Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı konsepsiyasına əsasən, müəllim hazırlığı üç mərhələdə həyata keçirilməlidir:

1. İlkin pedaqoji təhsil.
2. İxtisasartırma.
3. Yenidən hazırlanma [2].

Bu konsepsiya Təhsil Qanunu, İslahat proqramı və Boloniya bəyannaməsinə uyğun olaraq hazırlanmışdır. Müəllim bacarıqlarının əsas meyarları aşağıdakılardır:

- metodoloji bacarıqlar;
- mədəni səviyyə;
- fənn yönümlülük;
- yenilikçilik və yaradıcılıq [3].

Müəllim pedaqoji fəaliyyətini yaradıcı şəkildə yönləndirmək üçün daim öz üzərində işləməlidir. Bunun üçün:

- öz imkanlarını obyektiv qiymətləndirməlidir;
- peşəsindəki zəif və güclü cəhətləri müəyyən etməlidir;
- intellektual fəaliyyətə malik olmalıdır;
- müasir dünya təhsil sisteminin inkişaf tendensiyalarına uyğun olmalıdır. [3].

Müəllim kadrlarının hazırlanmasının əhəmiyyəti təhsilin inkişaf strategiyasının əsas istiqamətlərindən biridir. Buna görə də peşəkar müəllim, real pedaqoq, təhsilin yenilənmə prosesinə daha sürətlə qoşula bilir. Müəllim köhnə düşüncə tərzindən uzaqlaşaraq yeniləşmə məsələsində ciddi bir mövqe tutmalıdır. Sürətli elmi-texniki irəliləyişlər dövründə ziyalı adlanan müəllim həqiqətən də işıq saçan bir məşəl olmalıdır. Lakin yeni Təhsil islahatı prosesi davam edərkən, mövcud olan çatışmazlıqlar və ziddiyyətlər səbəbindən müəllim kadrlarının hazırlanması həm aktual, həm də çətinliklərlə doludur. XXI əsrin müəllimi yeni düşüncə tərzinə malik olmalı, eyni zamanda azad və müstəqil bir şüura sahib olmalıdır. Lakin burada bəzi çatışmazlıqlar da mövcuddur. Müəllim kadrlarının hazırlanmasının aktual problemləri çoxdur. Bunlara diqqət yetirək:

- köhnə düşüncə tərzinin hələ də qalması;
-yeni sistemin bəzi prinsiplərinin qəbul edilməsində çətinlik, ənənəvi müəllimlik xüsusiyyətlərinə bağlılıq;
- İKT-yə qarşı çəkingənlik;
- öz peşəsində zəif və güclü tərəflərini müəyyən etmək;
- sürətli informasiya mühitində müvəqqəti durğunluq;
- yaşlı müəllimlərdə müəyyən qısqanclıq yanaşmaları;
- hələ ki, məktəblərdə tədris prosesini gücləndirən tam təminatın olmaması və s. [5].

Pedaqoji kadrların hazırlanması, təhsilimizin və dövlətimizin diqqət mərkəzində olan ən aktual məsələlərdən biridir. Dəyişən dünyanın yeni təhsil tələblərinə uyğun olaraq müəllim də dəyişməli, inkişaf etməli və yeniliklərə açıq olmalıdır. Müəllim, ilk növbədə, öz pedaqoji fəaliyyətini əsas istiqamətlər üzrə təşkil etməlidir. Gəlin, bunları nəzərdən keçirək:

1. Tədris fəaliyyəti. Müəllim dərs prosesində təlim-tərbiyə fəaliyyətini təşkil edir. O, yeni tədris üsullarından və vasitələrindən istifadə edir. Öz fənnində konkret tədris proqramlarını həyata keçirir. Müvafiq dövlət təhsil standartlarının tələbləri çərçivəsində şagirdlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsini təmin edir. Müəllim, tədris proqramlarının keyfiyyətli icrası üçün məsuliyyət daşıyır.

---

[142] Bakı Slavyan Universitetinin magistrantı. https://orcid.org/0009-0001-9951-9114, rafiga898@gmail.com

2. Şagirdlərin sinifdənkənar və məktəbdənkənar fəaliyyətinin təşkili. Müəllim, tədris etdiyi fənn üzrə fəaliyyət göstərməlidir. O, məktəbdənkənar və sinifdənkənar zamanlarda dərsdənkənar fəaliyyətlərin təşkilinə çalışmalıdır. Əqli, əxlaqi, estetik, ekoloji, fiziki tərbiyə və digər istiqamətlərdə iş aparılmalıdır.

Belə fəaliyyətlər şagirdlər arasında ünsiyyətin, birliyin və ümumi mənafenin yaranmasına kömək edir. Sağlam psixoloji mühitin yaradılması və şagirdlər arasındakı əməkdaşlıq, onların inkişafına müsbət təsir göstərir. Bu zaman müəllim şagirdlər haqqında daha çox və ətraflı məlumat əldə edə bilir. Təlim-tərbiyə prosesi optimallaşır və daha səmərəli olur. Şagird-müəllim fəaliyyətində qarşılıqlı əməkdaşlıq formalaşır. Şagirdlər arasında peşə yönümlü təbliğat və seçim qabiliyyəti inkişaf edir.

3. Valideynlərlə əməkdaşlıq. Bu, müəllimin şagirdlərin tədris intizamına nəzarət etməsi və dərsə davamiyyətin təmin olunmasına kömək edir. Belə bir əlaqənin qurulması uşaqların tərbiyəsində valideynlərə dəstək verir. Valideynlər mütəmadi olaraq məlumatlandırılır. Onlar üçün məsləhət saatları təşkil edilir. Hətta müasir məktəblərdə ailələrə elektron poçt vasitəsilə övladlarının inkişaf dinamikası barədə məlumat vermək mümkündür.

4. Məktəbin müvafiq təşkilatlarla əlaqələrinin qurulmasına dəstək. Müəllim, təhsil prosesinin əsas iştirakçısı olaraq, ictimai və dövlət təşkilatları ilə əlaqələr yarada və həyata keçirə bilir. Bu, qarşılıqlı bir fəaliyyətdir. Bu, həmçinin müəllim və şagirdlərin hüquqi və sosial müdafiəsinin təmin olunmasına yönəldilmişdir. Problemlərin həllinə kömək edir. Məktəbin ehtiyaclarını ödəmək üçün himayəçi qurumlarla əməkdaşlıqlar yaradılır.

5. Müəllimin təhsil, metodik və peşəkar səviyyəsinin artırılması. Bu sahədə ixtisasartırma təhsilinin rolu və əhəmiyyəti çox önəmlidir. İxtisasartırma təhsili müəllimləri qlobal yeniliklər, elmi-texniki irəliləyişlər və təhsil prosesindəki yeniliklərlə tanış edir, onları yenidən hazırlayır və inkişaf etdirir. Müəllimlər məktəbin metodbirləşmələrində və dayaq məntəqələrində fəal iştirak edərək, şagirdlərin tədris, sinifdənkənar və məktəbdənkənar tərbiyəvi fəaliyyətlərinin təşkilində işlər görürlər. Onların peşəkarlıq səviyyəsi daim artır, fəaliyyətlərində pedaqoji etika normalarına, təhsil müəssisəsinin Nizamnaməsinə, Konstitusiyaya, Təhsil qanununa və Uşaq hüquqları Konvensiyasına riayət edirlər.

XXI əsrdə ümumi təhsil müəssisələrinə və pedaqoji kadrların hazırlanmasına verilən qiymət yeni meyarlar əsasında həyata keçirilir. Müasir məktəb yalnız hafizə məktəbi deyil, həm də düşüncə məktəbidir. Bu dövrdə ümumi təhsil məktəbinin əsas məqsədləri aşağıdakılardır:

1. Milli və bəşəri dəyərlərə malik vətəndaş yetişdirmək.
2. Hissi, idraki və fiziki keyfiyyətlərə malik şəxsiyyət formalaşdırmaq.

Müəllim öyrənməyi öyrənmək və özünü idarəetmə bacarığına sahib olmalıdır.

Belə kadrlar yeni biliklərə və qeyri-standart düşüncəyə malikdirlər. Müasir təhsil sistemi müəllimdən əvvəlcə özünü dəyişdirməsini, ənənəvi "reproduktor" rolundan imtina etməsini tələb edir.

Müəllim biliklərin qazanılmasında və ötürülməsində fasilitator və bələdçi rolunu oynamalıdır. Müasir müəllim nələri bilməlidir?

"- Yeni təlim texnologiyalarını bilmək.
- Fənn kurikulumlarından, təhsil standartlarından və dərsliklərdən bacarıqla istifadə etmək.
- Fasiləsiz təhsilini davam etdirmək, metodik və professional səviyyəsini artırmaq.
- Elmi-nəzəri biliklərini genişləndirmək" [4].

Peşəkarlıq və səriştəlilik müəllim üçün ən vacib keyfiyyətlərdən biri hesab olunur. Bu iki xüsusiyyət pedaqoji fəaliyyətin mühüm aspektlərini özündə birləşdirir ki, bu da pedaqoji prosesin bütövlüyünü, şəxsiyyətə yönümlülüyünü və nəticəyə yönümlülüyünü təmin edərək, təhsil alanların düşüncə və şəxsiyyət inkişafına əhəmiyyətli təsir göstərir. Bu, gənc nəslin zəngin biliyə və mütərəqqi dünyagörüşünə malik bir şəxsiyyət kimi formalaşmasına kömək edir. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında "Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması" strateji istiqamətinin əsas hədəflərindən biri, təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim artırılmasını təmin edən yeni sistemin yaradılmasıdır ki, bu da mühüm əhəmiyyət kəsb edir. Müəllimin peşəkarlığı və səriştəliliyi, onun pedaqoji prosesdə öz fəaliyyətini peşəkarcasına yerinə yetirə bilməsi və bu prosesə səriştəli yanaşması ilə bağlıdır. Başqa sözlə, müəllim öz peşəsinin bütün incəliklərini dərindən bilməli, müəllimlik fəaliyyətini ustalıqla icra etməli və qarşılaşdığı problemləri elmi yanaşma ilə, optimal metodlarla həll etməlidir [4].

Peşəkarlıq və səriştəlilik bir-biri ilə sıx bağlıdır, belə ki, birinə sahib olmaq, digərinə yiyələnmədən mümkün deyil. Lakin burada keçid və ardıcıllığı da nəzərə almaq vacibdir. "Peşəkarlıq - müəllimin lazım olan biliyə, bacarıqlara və şagirdlərlə yaradıcı şəkildə işləyə bilmək üçün texnologiyalara sahib olması, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsidir"[4]. Səriştəlilik isə müəllimin pedaqoji prosesi daha əlverişli metodlarla icra edə bilməsidir. Əldə olunan bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. Bu, şəxsin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektiv xidmət göstərir.

Pedaqoji prosesə peşəkar yanaşma müəllimdən dərin bilik və bacarıq tələb edir. Buna görə də peşəkarlıq və səriştəlilik bir-biri ilə sıx bağlıdır. Müəllimin pedaqoji dəyərlərə yiyələnməsi, bu dəyərləri qoruması və pedaqoji prosesdə yenilikçi pedaqoq kimi fəaliyyət göstərməsi peşəkarlıqla səriştəliliyin əlaqəsini və pedaqoji ustalığın meyarlarını ortaya qoyur. Lakin müəllimin peşəkar fəaliyyətinin səmərəliliyi yalnız bilik və bacarıqların sayından asılı deyil. Əsas məsələ, əldə olunan bacarıqlardan müəyyən pedaqoji situasiyalarda düzgün və səmərəli istifadə etmək, məlumat və bilikləri müxtəlif və optimal üsullarla, çevik şəkildə şagirdlərə çatdırmaqdır. Pedaqoji biliklər müəllimə kömək edir və şagirdlərin təlim və tərbiyəsinə xidmət edir. Bununla yanaşı, peşəkar fəaliyyət üçün zəruri olan yüksək həssaslıq, humanizm, peşə

mədəniyyəti, pedaqoji fəaliyyətin inkişafının düzgün istiqamətləndirilməsi kimi xüsusiyyətlər də müəllim peşəkarlığını xarakterizə edən cəhətlərdəndir.

**Nəticə.** Təhsil Nazirliyinin son aylarda Bakı şəhərində müəllimlərlə keçirdiyi sınaq imtahanlarında müəllimlərin yalnız 18 faizindən bir qədər çoxunun yüksək nəticə göstərməsi, respublikamızın ümumtəhsil məktəblərində peşəkar və səriştəli müəllimlərə, müasir təlim metodları ilə işləyən təhsilverənlərə, yeni pedaqoji düşüncə ilə fəaliyyət göstərən mütəxəssislərə, müəllimliyi həyat kredosu hesab edən vətəndaş müəllimlərə ehtiyacın çox olduğunu göstərir. Bu yolun peşə-ixtisas təhsilindən başladığını nəzərə alsaq, başlıca məsələlərdən biri müəllim hazırlayan ali məktəblərdə kadr hazırlığında əsaslı dönüşə nail olmaq və ilk növbədə gələcək müəllimlərdə əsl müəllim mövqeyi və vətəndaş şüurunu formalaşdırmağa çalışmaqdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Ali təhsil sistemində islahatlar üzrə Dövlət proqramı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 May tarixli sərəncamı.
2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) // Azərbaycan məktəbi, 2007, № 2, s. 90-98
3. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. Bakı, 2009
4. Hüseynov M. Müəllim, təlim-təhsil fəaliyyəti və onun təşkili texnologiyaları. "Azərbaycan məktəbi" jurnalı, 2017 № 4.
5. Mərdanov M.C., Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu, 2009.
6. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi: Bakı: Müəllim, 2010.



**Keywords:** modern education system, modern school, pedagogical activity, professionalism and competence, personnel training

**Ключевые слова:** современная система образования, современная школа, педагогическая деятельность, профессионализм и компетентность, подготовка кадров


**Teacher based on modern educatıon strategy**

**Summary**


The role of teachers in the 21st century has evolved significantly, and they are tasked with much more than simply delivering content. Modern educators must help shape students into individuals who are not only academically proficient but also socially responsible, innovative, and ready to thrive in an increasingly complex and competitive world. Professionalism in teaching goes beyond mastery of the subject matter. It involves a deep commitment to the values that guide the educational process, including respect for students, a commitment to equity, and a focus on lifelong learning. Teachers must continuously adapt to new teaching methods, technological advances, and changing societal needs. This adaptability requires both knowledge and competence. Competence in teaching involves a range of skills: effective communication, the ability to assess students' progress, creating inclusive learning environments, and fostering critical thinking. When teachers master these competencies, they can provide a high-quality education that not only meets the immediate academic needs of students but also prepares them for the challenges of tomorrow's world.


**Учитель в основном образовательной стратегии современной**

**Резюме**


Роль учителей в 21 веке значительно изменилась, и перед ними стоит задача сделать гораздо больше, чем просто донести контент. Современные педагоги должны помогать формировать учеников в личностей, которые не только академически успешны, но и социально ответственны, инновационны и готовы преуспеть во все более сложном и конкурентном мире. Профессионализм в преподавании выходит за рамки овладения предметом. Он подразумевает глубокую приверженность ценностям, которые направляют образовательный процесс, включая уважение к ученикам, приверженность равенству и сосредоточенность на непрерывном обучении. Учителя должны постоянно адаптироваться к новым методам обучения, технологическим достижениям и меняющимся общественным потребностям. Эта адаптивность требует как знаний, так и компетентности. Компетентность в преподавании включает в себя ряд навыков: эффективное общение, способность оценивать прогресс учеников, создание инклюзивной среды обучения и поощрение критического мышления. Когда учителя осваивают эти компетенции, они могут предоставлять высококачественное образование, которое не только отвечает непосредственным академическим потребностям учеников, но и готовит их к вызовам завтрашнего мира.



**Rəyçi:** dos. Məmmədova A.İ.